2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərində vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü İlham Məmmədovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 12 fevral 2020-ci il tarixli 144 saylı müraciəti üzrə

**RƏYİ**

Bakı şəhəri 14 fevral 2020-ci il

Mən, ekspert qrupunun üzvü İlham Məmmədov 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərində qeydə alınmış namizəd İsmayıl Zakir Ağaəli oğlu 23 saylı Nəsimi-Səbail seçki dairəsi üzrə seçki məntəqələrində seçkinin düzgün aparılmadığına, vətəndaşların hüquqlarının pozulmasına dair Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) daxil olmuş 12 fevral 2020-ci il tarixli 144 saylı müraciətini nəzərdən keçirərək **m ü ə y y ə n e t d i m**.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112.1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqularının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinin pozulması ilə daxil olduğundan aidiyyəti üzrə dairə seçki komissiyasına göndərilməlidir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112.1-ci maddəsində göstərilən şəxslər şikayəti müvafiq yuxurı seçki komissiyasına təqdim edə bilərlər.

Həmin Məcəllənın 121.1.12-ci maddəsinə görə müraciət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112.1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6, 7, və 8-ci hissələrinə əsasən **r ə y ə g ə l d i m :**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərində 23 saylı Nəsimi-Səbail seçki dairəsi üzrə qeydə alınmış namizəd İsmayıl Zakir Ağaəli oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 12 fevral 2020-ci il tarixli 144 saylı müraciəti araşdırılması üçün aidiyyəti üzrə həmin seçki dairəsinin dairə seçki komissiyasına göndərilməlidir.
2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü İlham Məmmədov